**AZƏRBAYCAN RESPUBLİKASI**

**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYONU İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**

**SƏRƏNCAMI**

№ 310 17 12 **2021-ci il**

**Binəqədi rayonu üzrə 2022-ci il üçün "Ərazi Məşğulluq Proqramı"nın təsdiq olunması barədə**

Əmək bazarının mövcud vəziyyəti, əmək bazarında iştirak edəcək işçi qüvvəsinin tərkibi və onlardan istifadə olunması, peşə hazırlığı kurslarının təşkili, kvota ilə işədüzəltmə, işaxtaran və işsiz vətəndaşların sosial müdafiəsinin əsas istiqamətləri və nəzərdə tutulmuş tədbirləri nəzərə alaraq "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 6.8 və 4.8.2-ci bəndlərinə əsaslanaraq

**Qərara alıram:**

1. 2022-ci il üçün Binəqədi rayonu üzrə "Ərazi Məşğulluq Proqramı" təsdiq edilsin.

2. Məşğulluğa kömək göstərən Yerli Əlaqələndirmə Komitəsinə tapşırılsın ki:

- Rayon ərazisində fəaliyyət göstərən işəgötürənlərin iştirakı ilə mütəmadi olaraq əmək yarmarkalarının keçirilməsini təşkil etsin;

- İxtisası və peşəsi olmayan işaxtaran gənclərin peşə hazırlığı kurslarına cəlb olunmasını təmin etsin;

- İşaxtaran və işsiz vətəndaşların məşğulluğunun yaxşılaşdırılması və sosial müdafiəsinin gücləndirilməsi istiqamətində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini təmin etsin;

- Aztəminatlı ailələrin Özünüməşğulluq Proqramı layihəsinə cəlb edilməsi;

- Kvota iş yerləri tətbiq edilmiş müəssisələrdə kvota iş yerlərinə sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən işaxtaranların işlə təmin olunmasını nəzarətdə saxlasın;

3. Sərəncamın icrasına nəzarət RİH başçısının müavini Sevinc Süleymanova həvalə edilsin.

4. Sərancamın surətlərinin aidiyyəti üzrə çatdırılması Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinə həvalə edilsin.

**Elxan Allahverdiyev**

**ƏSLİ İLƏ DÜZDÜR.**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri vəzifəsinin səlahiyyətlərini müvəqqəti icra edən məsləhətçi (kadrlar üzrə işin aparıcısı)** **Cəmilə Məmmədova**

**Məşğulluğa Kömək Göstərən Yerli Əlaqələndirmə Komitəsinin 2022-ci il üçün hazırlanmış Binəqədi rayonu üzrə Ərazi Məşğulluq Proqramı barədə**

**rəyi**

2022-ci il üçün rayon Ərazi Məşğulluq Proqramının hazırlanmasının əsas məqsədi rayon ərazisində işsizlik səviyyəsinin aşağı salınmasına kömək göstərmək, mütəmadi olaraq əmək bazarındakı vəziyyəti təhlil edərək işaxataran və işsiz vətəndaşların sosial müdafiəsini təmin etməkdir.

Proqram hazırlanarkən 2022-ci ildə əmək bazarında iştirak edən vətəndaşların tərkibi və daxil olan boş iş yerləri arasındakı fərq ətraflı təhlil edilmiş, əhalinin məşğulluq səviyyəsi, işaxtaran və işsiz vətəndaşların sosial müdafiəsinin təmin edilməsi araşdırılmışdır.

Proqramda növbəti il üçün proqnoz olaraq rayonun sosial iqtisadi inkişaf perspektivləri nəzərə alınmaqla əmək bazarında baş verə biləcək dəyişikliklər, rayon ərazisində yeni açılacaq iş yerləri barədə məlumatlar öz əksini tapmışdır.

Məşğulluğa Kömək Göstərən Yerli Əlaqələndirmə Komitəsinin üzvlərinin iştirakı ilə Proqramın layihəsi geniş müzakirə edilmiş, onun Binəqədi rayonu üzrə sosial-iqtisadi inkişaf proqramlarına uyğun tərtib olunduğu müəyyən olunmuşdur.

Qeyd olunanları nəzərə alaraq, Məşğulluğa Kömək Göstərən Yerli Əlaqələndirmə Komitəsi 2022-ci il üçün hazırlanmış Binəqədi rayonu üzrə Ərazi Məşğulluq Proqramının təsdiq edilməsini məqsədəmüvafiq hesab edir.

**Binəqədi rayon İcra Hakimiyyəti başçısının müavini** **Sevinc Süleymanova**

Binəqədi Rayon İcra Hakimiyyəti başçısının
17 dekabr 2021-ci il tarixli "310"
saylı sərəncamı ilə təsdiq olunmuşdur.

## Binəqədi rayonu üzrə 2022-ci il üçün

## ƏRAZİ MƏŞĞULLUQ PROQRAMI

"Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinə əsasən qeyri-məşğul əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsini, işə düzəlməsinin təmin edilməsini, sosial müdafiəsinin yaxşılaşdırılmasını həyata keçirmək üçün ərazi üzrə iqtisadi və sosial inkişaf proqnozları göstəricilərinə əsaslanaraq hər il üçün "Ərazi Məşğulluq Proqramı"hazırlanır.

4 saylı Ərazi Məşğulluq Filialı "Məşğulluq haqqında" Azərbaycan Respublikası qanununa və digər normativ hüquqi aktlara müvafiq olaraq Binəqədi rayonu üzrə işaxtaran və işsiz vətəndaşlara məqsədyönlü əmək hüquqlarını həyat keçirmək üçün dövlət təminatını yerinə yetirərək bu istiqamətdə işlərini davam etdirmiş, işaxtaran və işsiz vətəndaşların münasib işlə təmin olunmasında, onların sosial müdafiəsi sahəsində dövlət qayğısının gücləndirilməsi məqsədilə, əhalinin məşğulluğunun əsas göstəricilərində nəzərdə tutulmuş tədbirlərin həyata keçməsi üçün qeyd olunanlara əsaslanaraq 2020-cu ilin faktiki yekunu, 2021-ci ilin doqquz aylıq nəticələri təhlil olunmuş, bu nəticələrə uyğun olaraq 2022-ci il üçün Binəqədi rayonu üzrə "Ərazi Məşğulluq Proqramı" hazırlanmışdır.

Proqramda əsas məqsəd 2022-ci ildə əmək bazarında iştirak edəcək vətəndaşların əmək hüquqlarının həyata keçirilməsi, qazancını itirən, ilk dəfə iş axtaran, uzun fasilədən sonra yenidən fəaliyyətə başlamaq istəyən vətəndaşların, eləcə də sığortaolunanların itirilmiş əmək haqqlarının kompensasiya olunması, işsizliyin yaranması hallarının qarşısının alınması üçün qabaqlayıcı tədbirlərin görülməsi yolu ilə əhalinin sosial müdfiəsinin gücləndirilməsinə təminat verilməsidir.

## I.Əmək bazarının hesablanması, təhlili və proqnozu.

Əmək bazarının hesablanmasında əsas məqsəd əmək bazarının iştirakçıları, onların peşə-ixtisas təsnifatına görə əmək bazarında tələb və təklifi müəyyənləşdirmək məqsədilə əmək ehtiyatlarını təşkil edən əhali kateqoriyaları, o cümlədən əmək qabiliyyətli yaşda olan əmək qabiliyyətli əhali, iqtisadiyyatda məşğul olan əmək qabiliyyətli yaşdan yuxarı yaşda olan əhali, əməkçi miqrantlar və iqtisadiyyatda məşğul olan yeniyetmələr, habelə iqtisadi fəal, iqtisadiyyatda məşğul olan əhalinin kateqoriyalar və fəaliyyət növləri üzrə əmək bazarının iştirakçılarının sayı haqqında məlumatlar hazırlanmışdır.

Binəqədi rayonu üzrə 2020-cu il üzrə əhalinin ümumi sayı 268405 nəfər olmuş, 2021-ci ilin sonuna 269810 nəfər olması gözlənilir. Əhalinin ümumi sayı 2022-ci il üçün 271215 nəfər olacağı proqnozlaşdırılıb.

Əmək ehtiyatları 2020-cu il üzrə 196284 nəfər olmuş, 2021-ci ilin sonuna 197311 nəfər olması gözlənilir. 2022-ci il üçünsə bu rəqəmin 197341 nəfər olacağı gözlənilir ki, bu da rayon əhalisinin ümumi sayının 72.76% ni təşkil edir.

İqtisadi fəal əhalinin sayı 2020-cu il üzrə 146872 nəfər olmuş, 2021-ci ilin sonuna 148395 nəfər olması gözlənilir. 2022-ci il üçünsə bu rəqəmin 149168 nəfər olacağı gözlənilir ki, bu da əhalinin ümumi sayının 55%-ni, əmək ehtiyatlarının ümumi sayının 75.58%-ni təşkiledir.

Mülkiyyət formasından asılı olmayaraq xalq təsərrüfatının ayrı-ayrı sahələrində, iqtisadiyyatda məşğul olanların sayı 2020-cu il üzrə 134314 nəfər olmuş, 2021-ci ilin sonuna 140005 nəfər olması gözlənilir. 2022-ci il üçün isə bu rəqəmin 142118 nəfər olacağı proqnozlaşdırılır ki, bu rayon üzrə iqtisadi fəal əhalinin 95.27%-ni, rayon əhalisinin 52.40%-ni təşkil edəcək.

Əmək bazarında 2022-ci ildə 66569 nəfərin iştirak edəcəyi proqnozlaşdırılır. Proqnoza əsasən, əmək bazarının formalaşmasında üstünlük təşkil edəcək mənbələr,əsasən, müəssinən ləğvi və ştatların ixtisarı ilə əlaqədar sərbəstləşənlər, öz arzuları ilə işdən azad olunanlar, ali, orta ixtisas və ilk peşə-ixtisas məktəblərinin məzunları, IX və XI sinfi bitib heç bir yerə getməyənlər, həqiqi hərbi xidmətdən təxris olunanlar, ilin əvvəlinə Mərkəzdə işaxtaran kimi qeydiyyatda olanlardan ibarətdir.

Müəssisə və təşkilatlar istehsalın artırılmasında və əməyin ödənilməsində maliyyə çətinlikləri ilə rastlaşır, bunun nəticəsində də işçilərin müəyyən hissəsi sərbəstləşdirilir, yaxud da ödənişsiz məzuniyyətlərə göndərilir. Eyni zamanda dövlət orqanlarının və ya hüquqi şəxslərin ləğv edilməsi və ya işçilərin sayı və ştatların ixtisar edilməsi nəticəsində işçilərin müəyyən hissəsi sərbəstləşdirilərək əmək bazarına daxil olurlar. O cümlədən Pandemiyanın dünyada yaratdığı qlobal iqtisadi böhran respublikamızdan da yan keçməmişdir. Belə ki, bəzi müəssisə və təşkilatlar öz fəaliyyətini dayandırmış, yaxud da tam gücü ilə işləyə bilmədiyi üçün mövcud ştatların və işçilərin sayı azalmışdır. Müəssisə və təşkilatların işində yaranan fasilələr əmək bazarına da öz mənfi təsirini göstərmişdir. 2022-ci ildə bu sahədə dinamikanın dəyişəcəyi, yəni əmək bazarında müsbət dəyişikliklər baş verəcəyi proqnozlaşdırılır.

Müəssisə və təşkilatlarda əmək haqının aşağı olması, yaxud işçiləri qane etməməsi kadr axınının artmasına böyük təsir göstərir. Bununla əlaqədar işçilər daimi iş yerindən çıxaraq yüksək əmək haqqı olan iş yerləri axtarmağa məcbur olur və yaxud əmək müqaviləsinin müddəti başa çatdığından sonra işdən azad edilir, əksər hallarda isə münasib iş yeri tapa bilmədiklərindən aylarla əmək bazarında iştirak edirlər. 2022-ci ildə bu kateqoriyada olanlardan əmək bazarında iştirak edənlərin sayı 4260 nəfər olacağı proqnozlaşdırılır.

Ali məktəb məzunlarından 9886 nəfər, orta ixtisas məktəbi məzunlarından 8705 nəfər, ilk peşə-ixtisas məktəbi məzunlarından 580 nəfər, IX və XI sinifləri bitirib heç yerə getməyənlərdən 695 nəfər, hərbi xidmətdən tərxis olunanlardan 625 nəfərin əmək bazarında iştirak edəcəyi proqnozlaşdırılıb.

Binəqədi rayonu üzrə rəsmi işsizliyin səviyyəsi 2020-cu ildə 26% olmuş, 2021-ci ildə 1% olacağı gözlənilir, 2022-ci ildə də 1% olacağı proqnozlaşdırılır.

2022-ci il üçün əhalinin iqtisadi fəallığının səviyyəsi 75% məşğulluğun səviyyəsi 72% BƏT metodologiyasına görə isə işsizliyin səviyyəsi 5% faiz olacaqdır.

Binəqədi rayon üzrə işaxtaran kimi qeydiyyata alınacaq vətəndaşlardan 2022-ci il üçün 5700 nəfərin işlə təmin olunacağı, 115 nəfərin peşə hazırlığı kurslarına cəlb olunacağı, 895 nəfərin haqqı ödənilən ictimai işə cəlb olunacağı, 420 nəfərin, 55 nəfərinin işaxtaran vətəndaş olmaqla peşəyönümü məsləhətinə cəlb olunacağı, 385 nəfərin özünüməşğulluq proqramında iştirak edəcəyi proqnozlaşdırılır.

## Fərdi sahibkarlıqla məşğul olanların fəaliyyət növləri üzrə bölgüsü

Rəsmi olaraq VÖEN əsasında sığorta və vergi ödəyicisi kimi Binəqədi rayonu üzrə Sosial Müdafi Fondu və Vergi orqanında qeydiyyatda olan fiziki şəxslərin sayı 2020-cu il üçün 4465 nəfər olmuş, 2021-ci il üçün 4522 nəfər olacağı gözlənilir, 2022-ci il üçün isə 4587 nəfər olacağı proqnozlaşdırılır.

## II. İllər üzrə əsas göstəricilər

Məşğulluq Mərkəzinin fəaliyyətinin əsas istiqamətlərindən biri və ən başlıcası işaxtaran və işsiz vətəndaşların sosial müdafiəsində mühüm əhəmiyyət kəsb edən işədüzəlməsahəsidir.

2022-ci ildə isə Mərkəzdə 5112 nəfərin işaxataran vətəndaş kimi qeydiyyata alınması, 5700 nəfərin daimi işlə təmin edilməsi proqnozlaşdırılır.

## Peşəyönümü

Peşəyönümü gənclərin peşə seçməyə hazırlanması, onların maraq və meyllərini, əmək bazarının tələbatını nəzərə almaqla münasib peşəyə yiyələnməsi və işədüzəlməsi məqsədi ilə həyata keçirilən ictimai-pedaqoji tədbirlər sistemidir.

Gənclərin əmək bazarının tələbləri əsasında düzgün peşə və ixtisas seçiminə köməklik göstərilməsi üçün, əsasən, orta ümumtəhsil məktəblərində və eləcə də mərkəzə müraciət edən gənc işaxtaranlarda özünüdərketmənin inkişaf etdirilməsi, şəxsiyyətinin, qərar qəbul etməsinin öyrənilməsi, karyera inkişafının müəyyən edilməsi və əmək bazarı haqqında məlumatlandırılması məqsədi ilə peşəyönümü məsləhətlərinə cəlb olunurlar.

Mərkəz gənclərin peşə seçiminə hazırlanması, onların maraq və meyllərinə uyğun düzgün peşə seçməsinə köməklik göstərir. Peşəyönümü məsləhətlərinə ümumi orta məktəb məzunlarının daha çox ehtiyaclarının olması nəzərə alınaraq orta ümumtəhsil məktəblərində bu işlər daha fəal aparılır, onlara peşə seçimi vərdişlərinin inkişaf etdirilməsi məqsədi ilə peşə seçimi yolları öyrədilir.

2022-ci il üçün peşəyönümü məsləhətlərinə 420 nəfərin cəlb olunacağı, onlardan 55 nəfərin, yəni 13.09%-nin işaxtaran olacağı proqnozlaşdırılır.

## Status və işsizlikdən sığorta ödənişi təyinatı

Mərkəzdə qeydiyyata alınan vətəndaşlardan 2682 nəfərə işsizlik statusunun verilməsi, 290 nəfərə işsizlikdən sığorta ödənişi təyin olunması proqnozlaşdırılır ki, bununla əlaqədar işsizlik sığortası alanların, yəni ödəmələrin sayı 1404 nəfər olacaqdır ki, onlardan 150 nəfər ödəniş, yəni 10.68% orta aylıq əmək haqqı ilə, 140 nəfər ödəniş, yəni 9.97% minimum məbləğdə ödəmə ödəniləcəyi proqnozlaşdırılır.

2022-ci ildə 790 nəfər işaxataran vətəndaş Mərkəzdən qeydiyyatdan çıxarılacaqdır.

2022-ci il üçün dövrün sonuna Mərkəzdə 31933 nəfər işaxataran vətəndaşlardan 15466 nəfəri qadın, 11806 nəfəri 29 yaşadək gənclər, 255 nəfər məcburi köçkün qeydiyyatda olacaqdır ki, onlardan 13849 nəfər işsiz statusu almış vətəndaşlar olacağı proqnozlaşdırılır ki, bu da ümumi qeydiyyatda olan işaxtaranların 43.36%-ni təşkil edəcək.

## IV,Peşə hazırlığı kurslarının təşkili

Mərkəzdə işaxataran və işsiz kimi qeydiyyatda olan vətəndaşların işlə təmin olunması imkanlarının genişləndirilməsi, özünüməşğulluğun inkişaf etdirilməsi, əmək bazarında rəqabətə davamlığının artırılması məqsədilə peşə hazırlığı kursları təşkil edilir. Bu kurslar əmək bazarının və işəgötürənin real tələbləri nəzərə alınmaqla, peşə və ixtisaslara olan tələb və təkliflər nəzərə alınmaqla keçirilir, işçi qüvvəsinin əmək bazarının tələbatına uyğunlaşmasının səmərəliyini müəyyən edir və bütünlüklə Mərkəzin hesabına maliyyələşdirilir.

Belə ki, 2022-ci il üçün bu kurslarda 115 nəfərin iştirak edəcəyi proqnozlaşırılır.

## V, Haqqı ödənilən ictimai işlər

Rayon əhalisinin məşğulluğunu müvəqqəti təmin edən istiqamətlərdən biri də haqqı ödənilən ictimai işlərdir, bu isə xüsusi hazırlıq tələb etmədən müvəqqəti əmək fəaliyyəti deməkdir, yerli dövlət hakimiyyəti və idarə orqanları tərəfindən Məşğulluq Mərkəzinin bilavasitə iştirakı ilə təşkil olunur. İctimai işlər müxtəlif səsbəblərdən iş yerini və qazancını itirmiş işsizlərin müvəqqəti məşğulluğunu təmin edir.

İctimai işlərə cəlb olunan vətəndaşlarla iki ay müddətinə əmək müqaviləsi bağlanılır və lazım gələrsə tərəflərin razılığı ilə müqavilənin müddəti uzadılır. "Məşğulluq haqqında" Qanunda nəzərdə tutulduğu kimi, ictimai işlərdə məşğul olan işçilərin əmək haqqı faktiki görülən işin həcminə görə ödənilir.

Haqqı ödənilən ictimai işlərə 2022-ci il üçün isə 895 nəfərin cəlb olunacağı proqnozlaşdırılıb.

Haqqı ödənilən ictimai işlərin təşkili "Dost İş" MMC-də abadlıq, təmizlik, yaşıllaşdırma, təmir-tikinti xarakterli işlərlə nəzərdə tutulmuşdur.

## VI.Ərazi Məşğulluq Proqramında nəzərdə tutulmuş tədbirlərin maliyyə təminatı proqnozu

4 saylı Ərazi Məşğulluq filialı tərəfindən Binəqədi rayonu üzrə hazırlanan "Ərazi Məşğulluq Proqramı"nda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi üçün aşağıda qeyd olunan maliyyə vəsaitinin xərclənəcəyi proqnozlaşdırılır.

İşsizlikdən sığorta ödənişinin ödənilməsinə - **553950,00** manat

Haqqı ödənilən ictimai işlərin təşkili- **30000,00** manat

Ümumilikdə proqramda nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi üçün Filiala **723950,00** manat maliyyə təminatı proqnozlaşdırılıb.

Qeyd: Rayon " Ərazi Məşğulluq proqramı " 2022-ci ilin axırına gözlənilən statistik məlumatlar əsasında hazırlanmışdır.

**4 saylı Ərazi Məşğulluq**

**filialının müdiri** **Sənan Məmmədzadə**